## *Qazaxıstanın xarici işlər nazirinin müavini:*

# "Bu faciə bizim ümumi ağrımızdır"

"Bu faciə bizim ümumi ağrımızdır, çünki Aktau yaxınlığındakı təyyarə qəzasında həlak olanlar arasında Qazaxıstan vətəndaşları da var".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanın xarici işlər nazirinin müavini Roman Vasilenko bildirib.

"Biz ümid edirik ki, yaralılar tezliklə tam sağalıb ailələrinə qayıda biləcəklər. Biz bunun üçün əlimizdən gələni edirik", - deyə o vurğulayıb.

Nazir müavini Aktauda yardım göstərən, o cümlədən qan verən qazaxıstanlılara minnətdarlığını bildirib, həmçinin Fövqəladə Hallar, Səhiyyə nazirliklərinin və yerli administrasiyanın operativ fəaliyyətini qeyd edib.

Roman Vasilenko faciə ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verərək deyib: "Biz birlikdə kədərlənirik".

---

Azərbaycan.- 2024.- 27 dekabr (№ 287).- S. 4.